DOI: https://doi.org/10.36719/2706-6185/48/154-158

**Əli Heydərli**
Azərbaycan Universiteti
magistrant
https://orcid.org/0009-0006-8468-3137
heyderlieli228@gmail.com

# Qarabağın tarixi-mədəni irsi, turizm əhəmiyyəti və yaşıl turizm potensialının inkişafı

## Xülasə

Müasir dövrdə turizm sənayesi qlobal iqtisadiyyatın dinamik sektorudur. Turizmin inkişafı təkcə iqtisadi baxımdan deyil, həm də sosial, mədəni və ekoloji sahələrdə əhəmiyyətli təsirlərə malikdir. Bu baxımdan, regionun turizm potensialından, xüsusilə zəngin təbii sərvətlərə, qədim tarixə və mədəni irsə malik ərazilərdə səmərəli istifadə olunması davamlı inkişafa nail olmaq üçün əsas strategiya kimi qəbul edilir. Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ ərazisi tarixi-mədəni irsi və yaşıl turizm əhəmiyyətinə görə Cənubi Qafqazın ən qədim və strateji əhəmiyyətli torpaqlarından biri hesab olunur. Coğrafi, demoqrafik və mədəni baxımdan Qarabağın əsas problemi onun həmişə mübahisəli ərazi olmasıdır. Hazırlamış olduğum məqalə Qarabağın tarixi-mədəni irsinin eramızdan əvvəlki dönəmdən hazırkı müasir dövrə kimi olan çalışmalara, araştırmalara və sonda yaşıl turizm potensialının inkişafına gedib dayanmaqdadır.

***Açar sözlər:*** *Qarabağ, tarix, mədəniyyət, yaşıl turizm, inkişaf*

**Ali Heydarli**
Azerbaijan University
Master student
https://orcid.org/0009-0006-8468-3137
heyderlieli228@gmail.com

# Historical and Cultural Heritage, Tourism Importance and Development of Green Tourism Potential of Garabagh

## Abstract

In modern times, the tourism industry is the dynamic sector of the global economy. The development of tourism has significant influences not only economically, but also in social, cultural and environmental areas. In this regard, the efficient use of the region's tourism potential, especially rich natural resources, ancient history and cultural heritage, is regarded as a basic strategy to achieve sustainable development. The integral part of Azerbaijan is one of the oldest and strategically important lands of the South Caucasus in terms of historical heritage and green tourism. The main problem of geographical, demographic and cultural, its main problem is always controversial. I prepared the article for the development of the historical and cultural heritage of Garabagh before the current modern period and in the end of the current modern period development of green tourism potential.

***Keywords:*** *Garabagh, history, culture, green tourism, development*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Qarabağ bölgəsi tarixən Azərbaycan ərazisinin ayrılmaz hissəsidir və Cənubi Qafqazın ən qədim və strateji əhəmiyyətli torpaqlarından biri hesab olunur. Əsrlər boyu müxtəlif dövlətlərin hakimiyyətinə tabe olan bu ərazi həm siyasi, həm də mədəni baxımdan regionun tarixində özünəməxsus yer tutmuşdur. Aydındır ki, Qarabağın sərhədləri və onun tarixi-coğrafi mövqeyi ilə bağlı etibarlı məlumatı XIX əsr Azərbaycan tarixçisi Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağnamə" adlı əsərində tapmaq olar. Müəllif bu əsərində Qarabağın cənubdan Araz çayı, şərqdən Kür çayı, şimaldan Goran çayı, qərbdən isə Qarabağ dağları ilə həmsərhəd olduğunu qeyd edir. Bu təsvir bölgənin təbii coğrafi xüsusiyyətlərini və keçmişdəki inzibati sərhədlərini dəqiqliklə müəyyən edir (Mirza, 2006, s. 122).

**Qarabağın tarixi-mədəni irsi**

Azərbaycanın Qarabağ bölgəsi 2000 illik tarixi olan ən qədim insan məskənlərindən biri olan Azıx düşərgəsinin sakinlərinin yaşadığı ərazidir. Qarabağ ərazisi paleolit dövrünün Quruçay mədəniyyətinin yaradıcılarının, eləcə də bir-birini əvəz edən köçkünlərin, Kür-Araz (Araz) və Xocalı tunc və dəmir dövründə mövcud olan Gədəbəy mədəniyyətlərinin davamçılarının yaşayış yeridir. Qarabağ ərazisinin dağlıq və düz hissələrində aşkar edilmiş qədim daş abidələr - Xocalıda dolmenlər, Xankəndidə kromlexlər, eləcə də Qarabağın müxtəlif yerlərində tapılmış daş qutular şəklində qədim dövrə aid qəbirlər o dövrün ideologiyasını və düşüncə formasını əks etdirən maddi-mədəni nümunələrdir.

**Tədqiqat**

Qarabağ abidələrinin bugünkü taleyinə gəlincə, XX əsrin sonuna qədər Ermənistanın həyata keçirdiyi diversiya fəaliyyəti, münaqişə və müharibə Azərbaycanın Qarabağ bölgəsindəki maddi mədəniyyət abidələrinin taleyini təhlükə altına qoyub. Müharibə ərəfəsində abidələrə qayğı göstərmək belə mümkün deyildi. Muzey eksponatlarını və kitabxanaları köçürmək mümkün deyildi. Davam edən vandalizm Azərbaycanın əsrlər boyu saxladığı tarixi abidələrin əksəriyyətini məhv edib. XX əsrin ən böyük faciəsi - Xocalı faciəsi törədildi. Erməni və rus hərbi birlikləri Xocalıda qırğınlar törədiblər. Əcdadlarımızın tarixi xatirəsini əks etdirən Xocalı qəbiristanlığı texnika ilə məhv edilib. Şuşada və Xocalıda separatçılar məşhur Xocalının qədim beşiyini - Gədəbəy mədəniyyətini təmsil edən Xocalı kurqanlarını vandalizmi ifrat həddə çatdırıblar. Şuşada Azərbaycan mütəfəkkirlərinin abidələri avtomatdan atəşə tutulub. Şuşa muzeyləri dağıdıldı. Azıx mağarası bəşəriyyətin beşiklərindən biridir, Ermənilərin döyüş sursatı anbarına çevrilmişdir. Müsəlman abidələri yerlə yeksan edildi, alban xristian abidələri tamamilə saxtalaşdırıldı. Yelisey məbədində, Həsənriz məbədində və digər abidələrdə Alban yazıları silinib. Albanlara məxsus və bu tikililərdə olan əşyalar talan edildi. Alban kralı III Vaçaqanın məzarı və monastırındakı yazı tamamilə məhv edildi (Thomas, 2003, s. 144).

**Qarabağ turizmin əhəmiyyəti**

Qarabağ bölgəsi zənginliyinə və müxtəlifliyinə görə turizm üçün əhəmiyyətli potensiala malikdir. Bölgənin təbii gözəlliyi, unikal iqlim şəraiti, zəngin flora və faunası, əsrarəngiz dağ mənzərələri, qədim tarixi abidələri və milli-mədəni irsi bir araya gələrək həm daxili, həm də beynəlxalq turizm bazarları üçün cəlbedici məkana çevrilir. Qarabağ bölgəsi minilliklər boyu çoxsaylı sivilizasiyaların məskəni olmuşdur. Bölgədə yerləşən qədim alban məbədləri, orta əsrlərə aid qalalar, türbələr, məscidlər və karvansaraylar bu ərazinin mədəni və dini müxtəlifliyini nümayiş etdirir. Bu baxımdan Şuşa şəhəri xüsusi yer tutur. "Qafqazın Konservatoriyası" kimi də adlandırılan Şuşa Azərbaycanda musiqi beşiyi kimi tanınır və Üzeyir Hacıbəyli, Bülbül, Xan Şuşinski kimi tanınmış sənətkarların vətənidir. Şuşada yerləşən tarixi-memarlıq abidələri, o cümlədən Gövhər ağa məscidi, Yuxarı Gövhər ağa məscidi və Xurşidbanu Natəvanın evi böyük tarixi əhəmiyyətə malikdir (Əlirzayev, 2010, s. 124).

Qarabağın relyef və iqlim xüsusiyyətləri ekoturizmin inkişafına şərait yaradır. Rayonun topoqrafiyası meşə massivləri, çaylar, şəlalələr və dağlıq ərazilərdə unikal təbiət mənzərələri ilə xarakterizə olunur ki, bu da həm istirahət, həm də ekoloji turlar üçün geniş imkanlar yaradır. Mineral

ehtiyatların, İstisu kimi şəfalı bulaqların, Laçın, Kəlbəcər, Zəngilan kimi rayonlarda dağ bulaqlarının olması ilə regionda sağlamlıq turizminin inkişaf potensialı göz qabağındadır.

**Yaşıl turizmin Qarabağ potensialı**

Azərbaycan iqtisadiyyatında turizm sektoru sürətlə genişlənir və gəlir və məşğulluq imkanları yaratmaq potensialına malikdir. Buna baxmayaraq, müasir turizm siyasətləri davamlılıq və ətraf mühitə təsir baxımından qeyri-adekvatdır. Ona görə də Azərbaycan turizmini yaşıl iqtisadiyyat nöqteyi-nəzərindən təhlil etmək mütləqdir. Bu kontekstdə Azərbaycanın turizm sektorunun yaşıl iqtisadiyyat perspektivindən təhlili ölkədə dayanıqlı turizm siyasətinin inkişafına töhfə verəcək. İqtisadi nöqteyi-nəzərdən turizmdə davamlılıq uzunmüddətli gəlirliliyin yaradılmasını, məşğulluq imkanlarını, gəlir artımını və rifahın ədalətli bölüşdürülməsini əhatə edir. Ekoloji baxımdan bu, təbii ehtiyatların qorunmasını nəzərdə tutur. Sosial nöqteyi-nəzərdən mədəni irsin, yerli ənənələrin və orijinallığın qorunmasını əhatə edir (Malheiro və başqaları, 2020, s. 15546).

Yaşıl turizm, turizmin maraqlı tərəflərinin təbiətə hörmət edən və ətraf mühiti qoruyan şəkildə hərəkət etməli olduğu əsasına əsaslanır. Aydındır ki, yaşıl turizm ikili təsirə malikdir; birincisi, ekoloji şüurun artırılmasına xidmət edir, ikincisi, səyahət edənlər üçün xoş təcrübələr təqdim edir. Bundan əlavə, o, CO2 emissiyaları və turizm, çirklənmə, bərpa olunan enerji və tullantıların idarə edilməsi nəticəsində yaranan iqlim dəyişikliyi kimi ekoloji problemləri həll edir (Chien-Hung, 2019, s. 164; Lenzen et al. 2018, s. 522; Streimikiene et al. 2021, s. 260).

Prezident İlham Əliyev Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı 2023-cü ildə dekabr ayının 25-də sərəncam imzalayıb. Sərəncamda qeyd olunub ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişməsinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Buna Keşikçidağda aparılan yaşıllaşdırma işlərini nümunə gətirmək olar

Azərbaycanın qarşısında prioritet hədəflər mövcuddur: "Ənənəvi enerji mənbələrinin inkişafına xüsusi diqqət yetirilir, azkarbonlu texnologiyaların tətbiqi, metan emissiyalarının minimuma endirilməsi, istehsal və hasilat proseslərində karbon dioksid emissiyalarının atmosferə atılmasının azaldılması, enerji səmərəliliyinin illik orta axınını bir neçə dəfə artırmaq istiqamətində addımlar atılır. Eyni zamanda, bir sıra şirkətlərlə bərpa olunan enerji mənbələrinin inkişafına da diqqət ayrılır. Azərbaycan regionda yaşıl enerjiyə keçiddə öndə olan dövlətlərdəndir. Həm Şərqi Zəngəzur, həm Naxçıvan, həm Bakı-Abşeron iqtisadi rayonlarında yaşıl enerjinin inkişafına nail olmaqla, ənənəvi enerji mənbələrindən artıq qalan həcmləri beynəlxalq bazarlara yönəldəcəyik. Məqsədlərimiz eyni zamanda mərhələli şəkildə "yaşıl" iqtisadiyyatı inkişaf etdirmək, "yaşıl" investisiyaları ölkəyə cəlb etmək, bu sahədə aparıcı dövlətlərdən birinə çevrilmək, əldə olunan yaşıl enerji həcmlərinin bir hissəsini Avropa, Qara dəniz hövzəsi ölkələrinə ixrac etməkdir".

Azərbaycan hökuməti tərəfindən 2021-ci ilin noyabr ayında Qlazqo şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişikliyi Konfransında (COP26) baza ili ilə müqayisədə 2050-ci ilə qədər istixana qazı emissiyalarının 40%-ə qədər azaldılması və işğaldan azad edilmiş ərazilərdə "xalis sıfır emissiya" zonası yaradılması niyyəti bəyan edilmişdir. Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında günəş enerjisi layihələri üçün əlverişli potensial mövcuddur və bu texniki potensial 7200 MVt-dan artıq olaraq qiymətləndirilir. Eyni zamanda, ilkin araşdırmalara əsasən, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olması müəyyən edilmişdir (Bünyadov, 1994).

İşğaldan azad edilmiş ərazilərin bərpası prosesinin mühüm tərkib hissəsi kimi enerji infrastrukturunun qurulması və enerji təhlükəsizliyinin təmin edilməsinə xüsusi əhəmiyyət verilir. Bu hədəfə uyğun olaraq elektrik enerjisinin istehsal güclərinin bərpası çərçivəsində Laçında, Kəlbəcərdə və Suqovuşanda bərpa edilən 20.2 MVt gücündə 4 su elektrik stansiyası artıq istismara verilmişdir:

• "Güləbird" SES - 8 MVt;
• "Suqovuşan-1" KSES - 4,8 MVt;
• "Suqovuşan-2" KSES - 3,0 MVt;
• "Kəlbəcər-1" KSES - 4,4 MVt.

Eyni zamanda, Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində ümumi gücü Azərbaycan tərəfi üçün 140 MVt (100 MVt " Xudafərin", 40 MVt " Qız Qalası") olmaqla, iki su elektrik stansiyasının tikintisi hazırda davam etdirilir.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası kontekstində iqlim dəyişikliyinin təsirlərinin aradan qaldırılması məqsədilə Azərbaycan sərhədləri daxilində bir sıra layihələrin icrasına başlanılıb. Layihələrdən birinin əsas məqsədi neft-qaz sektorunda təsirləri azaltmaq idi. SOCAR şirkəti ilə tikinti, nəqliyyat və qaz tutma sektorlarında enerji səmərəliliyi tədbirləri həyata keçirilmişdir (Qasımlı və b., 2022, s. 162).

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası (BMT GP) və Azərbaycan Hökuməti kənd təsərrüfatı biomüxtəlifliyinin qorunması və davamlı şəkildə istifadəsi məqsədi ilə layihə üzərində əməkdaşlıq edir. Büyükşor gölündə 100 kVt-lıq üzən günəş elektrik stansiyasının tikintisi davam edir və 50 MVt gücündə texniki-iqtisadi əsaslandırma aparılıb. Bundan əlavə, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda günəş enerjisi potensialı müəyyən edilmişdir. 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının 2023-cü ildə fəaliyyətə başlaması planlaşdırılır.

## Nəticə

Məhz Qarabağ rayonu öz tarixi, maddi-mədəni abidələri ilə, zəngin ədəbiyyata, incəsənətə, musiqi mədəniyyətinə malikdir. Qarabağlıların bədii təfəkkürünə, mədəniyyətinə və yaradıcılığına gözəl təbiət, iqlim və təbii sərvətlərin bolluğu böyük təsir göstərmişdir. Qarabağlıların zəngin yaradıcılıq ilhamının ən mühüm mənbəyi onların həyatı və gündəlik həyatı ilə bağlı xalq sənətkarlığı yer tutmaqdadır. Təbii ki, məişət xüsusiyyətləri, estetik zövqü, bir sözlə, xalqın milli siması və ləyaqəti bu sənətkarlıq növlərində xüsusilə aydın şəkildə özünü göstərmişdir. Tarixi mənbələr göstərir ki, bu əraziyə dair iddiaların formalaşmasında əsasən üç mühüm amil rol oynamışdır: tarixi saxtalaşdırmalar, etnik dəyişikliklər və xarici təsirlər. Lakin geniş elmi araşdırmalar, rəsmi sənədlər və maddi-mədəni abidələr Qarabağın, xüsusilə də Qarabağ bölgəsinin Azərbaycanın ayrılmaz bir hissəsi olduğunu açıq şəkildə sübut edir. Bu səbəbdən də bölgənin tarixi və mədəni bütövlüyünün qorunması zəruridir.

Qarabağ yalnız tarixi və mənəvi baxımdan deyil, həm də ölkənin turizm sektoru üçün strateji əhəmiyyətə malikdir. Bölgənin zəngin mədəni irsi, füsunkar təbiəti və iqtisadi potensialı, Qarabağın həm yerli, həm də beynəlxalq səviyyədə turizm istiqaməti kimi təqdim olunmasına imkan verir. Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa və inkişaf proqramları, Qarabağın beynəlxalq sərgilərdə tanıdılması və infrastruktur layihələri bu prosesi sürətləndirməkdədir. Qarabağın turizm imkanları yalnız iqtisadi inkişaf üçün deyil, eyni zamanda milli-mədəni dirçəlişin əsas dayaqlarından biri kimi qiymətləndirilir.

Tədqiqatın əsas məqsədləərindən biri də Azərbaycanda Qarabağ turizm sektorunu yaşıl iqtisadiyyat çərçivəsində qiymətləndirməkdir. Əhəmiyyətli sayda qlobal tədqiqatlar dayanıqlı turizm və ya ümumilikdə ekoturizm üzərində cəmlənsə də, bu tədqiqat xüsusi olaraq Azərbaycan kontekstinə və onun yaşıl iqtisadiyyat yanaşmasına diqqət yetirir. Qarabağ zonasının yaşıl iqtisadiyyat olaraq inkişaf etməsi onun yaşıl turizminn inkişafına və ölkənin iqtisadi böyüməsinə kömək edəcəkdir.

## Ədəbiyyat

1. Bünyadov, Z. (1994). *Azərbaycan VII-IX əsrlərdə*. Elm.
2. Cabbarov, Ə. X. (2017). *Turizm marşrutları və ekskursiya işinin təşkili*. QHT nəşriyyatı.

3. Chien-Hung, L. (2019). An empirical study on consumer experience and quality of green tourism. In *2019 3rd International Conference on Education, Culture and Social Development (ICECSD 2019).* Atlantis Press, 163–170.
4. de Waal, T. (2003). *Black Garden: Armenia and Azerbaijan through Peace and War*. New York: New York University Press.
5. Əlirzayev, Ə. Q. (2010). *Turizmin iqtisadiyyatı və idarə olunması*. İqtisad Universiteti nəşriyyatı.
6. Qeybullayev, Q. (1994). *Azərbaycan türklərinin təşəkkülü tarixindən.* Təhsil, 155–156.
7. Lenzen, M., Sun, Y. Y., Faturay, F., Ting, Y. P., Geschke, A., & Malik, A. (2018). The carbon footprint of global tourism. *Nature Climate Change*, 8(6), 522–528.
8. Mahmudov, Y. M., & Şükürov, K. K. (2013). *Qarabağ: Real tarix, faktlar, sənədlər*. Bakı: Təhsil.
9. Malheiro, A., Sousa, B. B., Liberato, D., & Liberato, P. (2020). Sustainability in tourism and hospitality: Trends and challenges. In *35th IBIMA Conference Education Excellence and Innovation Management: A 2025 Vision to Sustain Economic Development During Global Challenges*. IBIMA, 15545–15555.
10. Mirza, J. J. Garabaghi. (2006). *Qarabağnamə* (Chapter 1). Şərq-Qərb, 122.
11. Mustafayev, T. (2008). Qarabağ (Gəncə) bəylərbəyliyi XVIII əsrin I qərinəsində. *Azərbaycan EA Xəbərləri, Tarix, Fəlsəfə və Hüquq seriyası*, (3), 37.
12. Pan, S. Y., Gao, M., Kim, H., Shah, K. J., Pei, S. L., & Chiang, P. C. (2018). Advances and challenges in sustainable tourism toward a green economy. *Science of The Total Environment*, 635, 452–469.
13. Streimikiene, D., Svagzdiene, B., Jasinskas, E., & Simanavicius, A. (2021). Sustainable tourism development and competitiveness: The systematic literature review. *Sustainable Development*, 29(1), 259–271.

Daxil oldu: 18.03.2025
Qəbul edildi: 03.06.2025